UOT 94 (479. 24)

# XIX ƏSRİN SONU – XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ ŞİMALİ AZƏRBAYCANDA SAHİBKAR KƏNDİNDƏ ƏMTƏƏ - KAPİTALİST MÜNASİBƏTLƏRİNİN İNKİŞAF XÜSUSİYYƏTLƏRİ

**F.E.BAXŞƏLİYEV**
***Bakı Dövlət Universiteti***
***baxsaliebfazil@yahoo.com***

*XIX əsrin sonu – XX əsrin əvvəllərində sahibkar kəndində əmtəə kapitalist münasibətlərinin yaranması, kənd yerlərinin əvvəlki qapalılıq vəziyyətinin tədricən aradan qalxması kəndin simasında yeni şəhərlərin yaranması və kənd təsərrüfatı istehsalının get-gedə sənaye-əmtəə xarakteri alması, böyük malikanələrdə istehsal prosesinin tamamilə yeni forma və məzmun kəsb etməsi, bütövlükdə kənd təsərrüfatı istehsalının iqtisadiyyatda xüsusi çəkisinin və gəlirlərin dəfələrlə artması demək idi. XX əsrin əvvəllərinə qədər sahibkarların böyük bir hissəsi sahibkar kəndlilərin torpaqsız və ya aztorpaqlı vəziyyətindən istifadə edərək, əksər vaxtlarda öz torpaq və təsərrüfatlarının idarə edilməsindən kənarda qalırdılar. Sahibkar kəndinin əmtəə-kapitalist münasibətlərinin inkişafı prosesində yeri artdıqca bu proses bir sıra yeni, özünəməxsus cəhətlər kəsb etməyə başlayırdı.*

**Açar sözlər:** Azərbaycan, kapitalist, inkişaf, kənd, Şimal

XIX əsrin sonu – XX əsrin əvvəllərində sahibkar kəndində əmtəə kapitalist münasibətlərinin yaranması kənd yerlərinin əvvəlki qapalılıq vəziyyətinin tədricən aradan qalxması kəndin simasında yeni şəhərlərin yaranması və kənd təsərrüfatı istehsalının get-gedə sənaye-əmtəə xarakteri alması, böyük malikanələrdə istehsal prosesinin tamamilə yeni forma və məzmun kəsb etməsi, bütövlükdə kənd təsərrüfatı istehsalının iqtisadiyyatda xüsusi çəkisini və buradan gəlirlərin dəfələrlə artması demək idi. XX əsrin əvvəlləri əmtəə kapitalist münasibətlərinin inkişafının daha da sürətlənməsi əkinə yararlı torpaq sahəsinin genişlənməsi, kənd təsərrüfatı istehsalının bütün sahələri üzrə, ilk növbədə taxılçılıq və digər ənənəvi sahələrdə məhsuldarlığın daha da artması müşahidə edilirdi.

Bütün bunlarla bərabər Azərbaycan sahibkar kəndinin əmtəə-kapitalist münasibətlərinin inkişafı prosesində yeri artdıqca bu proses bir sıra yeni, özünə məxsus cəhətlər kəsb etməyə başlayırdı (24, 167).

Belə xüsusiyyətlərdən biri mülkədar və bəylərə məxsus torpaq və təsərrüfatlarda təsərrüfatların müstəqil şəkildə idarə edilməsi idi. Doğrudur, bu pro-

ses Kəndli Əsasnaməsinin qəbulundan sonra başlayıb, sonrakı iki on ildə bir qədər sürətlənsə də, hər halda Azərbaycan sahibkar kəndində ümumi nisbətdə çoz cüzi bir hissə təşkil edirdi. XX əsrin əvvəllərinə qədər sahibkarların böyük bir hissəsi sahibkar kəndlilərin torpaqsız və ya aztorpaqlı vəziyyətindən istifadə edərək, əksər vaxtlarda öz torpaq və təsərrüfatlarının birbaşa idarə edilməsindən kənarda qalırdılar. Artıq XIX əsrin 90-cı illərinin sonlarında bu sahədə vəziyyət dəyişir. Ayrı-ayrı qəzalarda, o cümlədən Cavanşir, Ərəş, Yelizavetpol, Quba və digər qəzalarda öz təsərrüfatlarını müstəqil idarə edən bəy və mülkədarların sayı birdən-birə sürətlə artmağa başlayır. Məsələn, Ərəş qəzasında 63 mülkədar malikanəsindən 32-i, Cavanşir qəzasında 76-dan 69-u müstəqil təsərrüfat fəaliyyətilə məşğul idilər (31, 38-45). Doğrudur, digər qəzalarda bu nisbət bir qədər bəzilərində xeyli aşağı idi. Lakin XX əsrin əvvəllərində belə istehsal fəaliyyəti ilə məşğul olan mülkədar və bəy təsərrüfatlarının sayı olduqca artır.

Sahibkar təsərrüfatlarının müstəqil fəaliyyətinin nəticələri kimi, ilk növbədə bu təsərrüfatlar daxilində istehsal edilən kənd təsərrüfatı məhsullarının həcminin xeyli artması xüsusi qeyd edilməlidir. Məsələn, 1913-cü il məlumatlarına görə Bakı quberniyası üzrə mülkədar və bəy təsərrüfatlarına məxsus 62210 desyatin sahədə 3272082 pud buğda, Yelizavetpol quberniyasında isə 83303 desyatində 4316340 pud buğda yetişdirilmişdi. Naxçıvan qəzası və Zaqatala dairəsinin nəticələrini də bura əlavə etsək, müstəqil təsərrüfat fəaliyyəti ilə məşğul olan bəy və mülkədar təsərrüfatlarında 151572 desyatində 7918429 pud buğda toplandığı məlum olur (13, vv. 63-65). Ayrı-ayrı qəzalar bu baxımdan digərlərini xeyli geridə qoyurdular. Bakı quberniyasında Cavad qəzasında 16000 desyatin sahədə buğda yetişdirilməsi ilə sərbəst şəkildə məşğul olan sahibkarlar 1362000 pud, Quba qəzasında 16320 desyatində 781000 pud məhsul əldə etmişdilər. Yelizavetpol quberniyasında 14100 desyatin sahədə 603250 pud, Şuşa qəzasında 19150 desyatində 848000 pud və Qazax qəzasında 12765 desyatində 1136000 pud buğda məhsulu (14, vv. 67-75) yetişdirilmişdi. Bəy və mülkədar torpaqlarında bu qədər çox əmtəəlik məhsulun yetişdirilməsi bunlarda yalnız məhsulu əməkdən geniş istifadə etmək əsasında mümkün olmuşdu.

XX əsrin əvvəllərində sahibkar təsərrüfatlarında get-gedə daha çox satılıb əmtəə istehsalı xarakteri olan digər taxıl və ya dənli bitki məhsulu düyü idi. Düyü və ya çəltik istehsalı sahəsində öndə gedən qəzalardan biri olan Qubada 67 torpaq sahəsinin 1000 desyatindən çox idi. Bunun içərisində 3 mülkədarın təsərrüfatı ümumi sahənin yarıdan çoxunu əhatə edirdi (32, 38-59).

Yenə həmin dövrdə Cavanşir qəzasında mülkədar təsərrüfatlarında çəltik əkini sahəsi 2750 desyatindən çox idi və onların arasında Camallinskilərin, Sarıcalinskilərin, Ağalarovların, Nurubəyovların, Xurşud Banu Natəvanın varislərinin, Adıgözəlovların və digərlərinin plantasiyalarının sahəsi daha böyük idi (32, 42-63).

XX əsrin əvvəllərində mülkədar və bəylərin təsərrüfatlarında öz fəaliy-

yətlərini daha çox əmtəə istehsalı və burjua-kapitalist təsərrüfatı tipində qurmağa yönəlmiş sahələrdən biri də üzümçülük və bağçılıq idi (23, 26).

Quba, Nuxa, Cavanşir, Qazax, Yelizavetpol, Şuşa və digər qəzalarda yüz desyatinlərlə meyvə bağları və üzümlük sahələri olan mülkədar və bəylərin muzdlu əməkdən istifadə etmək yolu ilə hər desyatin sahədən yüz manatlarla gəlir əldə etməsi haqqında çoxlu faktlar gətirmək olar. Təkcə Quba qəzasında XX əsrin əvvəllərində 198 iri torpaq sahibinin 670 meyvə bağları və 165 desyatin üzümlük sahəsi qeydə alınmışdı (1, v.119-120).

XX əsrin əvvəllərində Azərbaycan sahibkar kəndində mülkədar və bəylərin öz təsərrüfatlarını daha çox müstəqil şəkildə idarə etməyə üstünlük verdiyi digər bir sahə üzümçülük idi. 1916-cı il məlumatlarına görə Bakı quberniyasında 14870 üzümçülük təsərrüfatında 5-10 desyatin və daha çox üzümlük sahəsi olan sahibkarların təsərrüfat fəaliyyəti əsl burjua-kapitalist malikanəsini xatırladırdı (2, в.103). Belə təsərrüfatlarda muzdlu əməkdən geniş şəkildə istifadə edən sahibkarlar məhsulun yığılması, imkan emalı, şərab çəkilməsi, hazır məhsulun satılması kimi bütün prosesləri son dərəcə dəqiqliklə və vaxtında icra edən vahid təsərrüfat mexanizmi yarada bilmişdilər.

XX əsrin əvvəllərində Rusiya toxuculuq sənayesinin xammala olan tələbatının dəfələrlə artması sırf texniki-sənaye bitkisi sayılan pambıqçılıq təsərrüfatlarında mülkədar və bəylərin müstəqil idarəçilik dərəcəsini xeyli artırmışdı. XIX əsrin sonları ilə müqayisədə bəzi qəzalarda mülkədarlar və digər mülkiyyətçi şəxslərin təsərrüfatlarında pambıq əkini sahələrinin sürətli artımı hiss olunurdu (19, v.21-30).

Ərəş qəzasında yerli mülkədarlar Rzaqulubəy Lütfəlibəyov, Sultanovlar, Gəncinsevlər və digərləri öz malikanələri daxilində kənd təsərrüfatı fəaliyyəti ilə yanaşı ticarət-sənaye xarakterli fəaliyyət məqsədilə pambıqtəmizləmə zavodları tikmiş, kəndlilərindən və digər sahibkarlardan hazır pambıq məhsulunun alınması üçün məntəqələr, böyük həcmdə məhsul saxlaya bilən anbarlar, digər tikililər inşa etmişdilər (18, v.8).

Eyni sözləri Cavanşir qəzasındakı bəy və mülkədarların təsərrüfat fəaliyyəti haqqında da söyləmək olar. Belə ki, mülkədarlardan Qasım bəy Vəzirovun, Cəmil bəy Cəmillinin, Nurubəyovların, Həsənbəyovların və digərlərinin təsərrüfatlarının pambıq əkini sahələrinin bir neçə dəfə artması müşahidə edilirdi və bu digər ənənə əkin sahələrinin – taxıl, çəltik və s. əkinlərinin azaldılması, bağ sahələrinin qırılması, yeni mülklərin satın alınması, dövlət torpaqlarının icarəyə götürülməsi və s. yollarla baş verirdi (21, v.86). Bütövlükdə qəzada 1913-cü ildə qeydə alınmış 12,5 min desyatin pambıq əkini sahəsinin böyük bir hissəsi bəy və mülkədar təsərrüfatları daxilində idi və onların sahiblərinin əksəriyyəti bu və ya digər təsərrüfat sahələrini müstəqil idarə edirdilər (25, 127).

Şuşa qəzasında da Hüseyn ağa Cavanşirin, Fərrux bəy Vəzirovun, Yelizavetpol qəzasında İsrafil bəy Bağırbəyovun, Böyükağa bəy Şəmkirlinin sahəsi yüzlərlə, bəzən minlərlə desyatin olan pambıq sahələri öz sahiblərinin nəzarəti altında idarə edilir, burada mütərəqqi aqrotexniki üsullar, mükəmməl kənd

təsərrüfatı alətləri və maşınlar, yüksək sortlu pambıq toxumu və s. istifadə edilirdi (25, 129).

1913-cü il məlumatlarına görə Azərbaycanda yetişdirilmiş ümumi pambıq məhsulunun təxminən 28%-i sahibkar kəndinin payına düşürdü və burada iri mülkədar-bəy pambıqçılıq təsərrüfatları əhəmiyyətli dərəcədə böyük idi (14, vv.21-30).

Azərbaycan kəndində kənd təsərrüfatı istehsalının ikinci əhəmiyyətli və gəlirli sahəsi hesab edilən maldarlıqda bəy və mülkədarların, habelə digər mülkiyyətçi şəxsləri öz təsərrüfatlarının müstəqil şəkildə idarəetmə imkanları daha geniş idi. XX əsrin əvvəllərində bəy və mülkədar təsərrüfatlarında yüzlərlə qaramal və minlərlə qoyun saxlanılması və bu sürülərin ilbəil genişlənməsi müşahidə edilirdi. Məsələn, Qazax qəzasında Nəsib bəy Sultanovun, Məmməd Tağı İsgəndərbəyovun, Əhməd ağa Sultanovun və başqalarının 1000 başdan çox olan qoyun sürüləri var idi.yelizavetpol qəzasında isə bütün qoyun sürülərinin 80%-dən çoxu sahibkar təsərrüfatlarının payına düşürdü (30, 76-83).

Bəy və mülkədarların öz təsərrüfatlarını müstəqil şəkildə idarə etmələri halları ilə kənd təsərrüfatı istehsalının digər sahələrində də – ipəkçilikdə, biyan kökü istehsalı, tütünçülükdə – rastlaşılırdı. Bunların hamısı üçün ümumi cəhət, XX əsrin əvvəllərində yeni təsərrüfatçılıq formalarının öz torpaqlarını qoruyub saxlaya bilən, yeni bazar şərtlərinə və tələbatına uyğunlaşaraq fəaliyyətini davam etdirən mülkədar və bəylərin təsərrüfatlarının ilbəil daha çox hissəsini əhatə etməsi idi.

XX əsrin əvvəllərində sahibkar kəndində əmtəə-kapitalist münasibətlərinin inkişaf prosesində diqqəti cəlb edən başqa bir cəhət mülkədar və sahibkarların öz təsərrüfatlarında kənd təsərrüfatı məhsullarından bazarda baha çox tələbat hiss edilən və daha çox gəlir gətirən sahələri ilə, yaxud onların bir neçəsi ilə eyni vaxtda məşğul olmasıdır.

Məsələn, biz işin əvvəlki paraqraflarında Forer qardaşları şirkətinin üzümçülük və şərabçılıq sahəsində fəaliyyəti haqqında bəhs etmişik. Əslində bu fəaliyyət növü firmanın ən çox gəlir əldə etdiyi sahə idi. Firma eyni vaxtda geniş miqyasda, əkinçilik, ipəkçilik və maldarlıq təsərrüfatları şəbəkəsi yaratmışdı. Firmanın iri maldarlıq təsərrüfatlarında yüzlərlə baş qaramal, minlərlə baş qoyunsaxlanılır, maldarlıq məhsulları, ət, süd, yun və s. satış üçün müxtəlif bazarlara aparılırdı (3, v. 846).

1902-ci ildə Yelizavetpol qəzasında «Qaraçanax» adlanan 1150 desyatinlik torpaq mülkü satın alan A.Plemyannikov adlı sahibkar burada qısa müddətdə ən çox üzümlük, taxıl əkini,pambıqçılıq, maldarlıq və digər kənd təsərrüfatı istehsalı sahələrilə məşğul idi. Təsərrüfatda o dövr üçün ən mükəmməl formada ildə 30-40 min vedrə şərab məhsulları istehsal edilir və 70 min manat gəlir götürülürdü. 30 min gəlir isə təsərrüfatın digər sahələrindən əldə edilirdi və beləliklə, malikanə bir ildə 100 min manatdan çox gəlir gətirirdi. Hətta 1911-ci ildə təsərrüfatın gəliri 1,2 – 1,4 dəfə arası artmışdı (20, vv.1-43).

Yelizavetpol quberniyasının eyni adlı və Şuşa qəzalarında Bakı neft sə-

nayeçiləri N.Arafelov və Q.Arafelov XIX əsrin sonu – XX əsrin əvvəllərində müxtəlif illərdə satın aldıqları torpaq mülklərində eyni vaxtda taxılçılıq, üzümçülük və maldarlıq sahələrilə məşğul idilər. Onların hər birinin təsərrüfatında illik gəlir orta hesabla 30-50 min arasında olurdu (20, v.46).

XX əsrin əvvəllərində ticarət-sənaye əsasları ilə fəaliyyət göstərən mülkədar təsərrüfatların yüksək gəlirliyi digər peşə sahibi olan, əvvəllər kənd təsərrüfatı fəaliyyətilə məşğul olmayan insanların da diqqətini cəlb edirdi. Məsələn, ixtisasca dağ mühəndisi olan F.B.Vəzirov 1900-cü ildə Qarabağ xanlarının varislərindən Hindarx və Qaraqoyunlu kəndlərində müvafiq olaraq 15 min və 1250 desyatin torpaq mülkü satın alaraq, həm gəlirli bitkilərin yetişdirilməsi, həm də maldarlıqla məşğul olmağa başlamışdı (4, v.183). Təsərrüfatda ən çox pambıq yetişdirilsə də, taxılçılıq, bağçılıq və s. sahələrlə də məşğul olurdular. Təsərrüfatda ən mükəmməl qurğularla təmin edilmiş pambıq təmizləmə zavodu da fəaliyyət göstərirdi. Təsərrüfat hər il orta hesabla 70-80 min manat arası gəlir əldə edirdi (26, 11).

Görkəmli Azərbaycan xeyriyyəçisi və milyonçusu H.Z.Tağıyevin «Yevlax mülkü» adlı malikanəsində də XX əsrin əvvəllərində bazarın tələbatına uyğun olaraq müxtəlif əmtəəlik məhsulların istehsalı təşkil edilmişdi. Təxminən 5500 desyatin sahədə üzüm, çəltik, buğda, arpa, pambıq və s. məhsulların becərilməsi zamanı muzdlu əməkdən istifadə edilirdi. Bütövlükdə «Yevlax mülkü» malikanəsi öz sahibinə hər il orta hesabla 20 min manat mənfəət gətirirdi (5, v.139).

Kənd təsərrüfatı istehsalının bir çox sahələri ilə eyni vaxtda məşğul olmaq baxımından fərqlənən və ilbəil öz gəlirlərini artırmağa nail olaraq uğurlu fəallıq göstərən sahibkar təsərrüfatları içərisində Aqriyevlər qardaşlarının firması da qeyd edilmişdir.

XIX əsrin 60-cı illərindən Şamaxı qəzasının Mədrəs kəndində kiçik üzümlük sahəsi olan firma sonrakı onillikdə fəaliyyətini genişləndirmiş, şərabçəkmə zavodu inşa etdirmişdi və XIX əsrin sonu – XX əsrin ilk illərində illik gəlirini orta hesabla 250-300 min manata çatdırmışdı (6, v.4-5). XV əsrin ilk on ilində istehsal və ticarət fəaliyyətini genişləndirən firma artıq 1700 desyatin sahədə üzüm, 400 desyatin sahədə taxıl, 150 desyatin sahədə pambıq əkini ilə məşğul idi. Firmanın müxtəlif qəzalarda 6 şərab, konyak, spirt və digər məhsul istehsal edən zavodu, 1 su nasosları stansiyası, müxtəlif şəhərlərdə, hətta Azərbaycandan kənarda, satış mağazaları və anbarları var idi. 1916-cı ildə firmanın gəlirləri 1,5 – 2 milyon manata qədər yüksəlməsi (7, v.183) firmanın uğurlu fəaliyyətini sübut edirdi.

Mülkədar və sahibkarların XX əsrin əvvəllərində öz təsərrüfatlarında və ya sonradan satın aldıqları mülklərdə gəlirin təsərrüfat fəaliyyəti ilə məşğul olmalarına başqa bir misal neft sənayeçisi L.M.De-Burun adı ilə bağlıdır. XIX əsrin sonu – XX əsrin ilk illərində Quba qəzasında ümumi sahəsi 10 min desyatindən çox olan bir neçə malikanəni satın alan bu sahibkar sonrakı illərdə eyni vaxtda üzümçülük və şərabçılıq, bağçılıq, taxılçılıq, maldarlıq və digər

kənd təsərrüfatı istehsalı sahələrilə məşğul olmağa başladı (27, 14). Qəzanın hansı kəndində olmasından asılı olmayaraq sahibkarın təsərrüfatında əkinçilik, maldarlıq, üzümçülük və şərabçılıq, habelə bağçılıq – bostançılıq sahələrində fəaliyyət üçün bütün qurğular, kənd təsərrüfatı alətləri və maşınları istifadə edilirdi. Tikililər, zavodlar fəaliyyət göstərirdi.

Eyni sözləri XX əsrin ilk on ilində müxtəlif qəzalarda böyük həcmli torpaq sahələrinə malik olan və ya bunları satın almış İsa bəy Hacınskiyə, Süleyman bəy və Kərim bəy Hacınski qardaşlarına, A.Dadaşova, B.Bəylərova, A.Aşurbəyova və bir çox digərlərinə də aid etmək olar (8, v.2).

Beləliklə, biz XX əsrin əvvəllərində Azərbaycan sahibkar kəndində əmtəə istehsalının qabarıq xüsusiyyətlərindən biri kimi, mülkədar, bəy və digər sahibkarların öz mülklərində kənd təsərrüfatı istehsalının müxtəlif sahələrində eyni vaxtda uğurlu fəaliyyəti və çoxlu əmtəəlik məhsul istehsal edərək öz gəlirlərini xeyli artırmalarından bəhs etdik. Nəzərə almalıyıq ki, burada biz yalnız bu növdən olan iri miqyaslı təsərrüfatlardan danışdıq. Azərbaycan sahibkar kəndində bu növ fəaliyyətlə məşğul olan 10 minlərlə sahibkar təsərrüfatları var idi və onlar da bəhs olunan dövrdə təsərrüfatların miqyasından və çoxsahəliliyindən asılı olaraq müxtəlif səviyyədə uğurlu fəaliyyət göstərirdilər.

Yaxud digər cəhət, bizim təsdiq etdiyimiz təsərrüfatların uğurlu fəaliyyəti, yüksək gəlirlər əldə etməsi heç də bütün sahibkar təsərrüfatlarına aid deyildi. Biz deyərdik ki, xırda və orta sahibkarların mühüm bir hissəsi, iri mülkədar və sahibkarların isə müəyyən qrupu yeni əmtəə-kapitalist münasibətlərinin inkişafı tələblərinə uyğunlaşmayaraq, belə desək, zamanla ayaqlaşmayaraq, öz təsərrüfat fəaliyyətlərini təsərrüfatçılığın yeni qaydaları əsasında qura bilməyərək, ya torpaqlarını girov qoyur, borca düşür, ya da onları sataraq müflisləşirdilər.

Xırda və orta miqyaslı mülklərin müflisləşərək satılması bəlkə də XX əsrin əvvəllərində mülkədar-sahibkar təsərrüfatlarının yeni təsərrüfatçılıq və bazar münasibətləri ilə ayaqlaşmayaraq başqa çıxış yolu tapmaları adi bir təsir bağışlayırdısa, lakin iri miqyaslı mülkədar malikanə torpaqlarının satılması, özü də bu torpaqların əksər vaxtlar qeyri müsəlman ticarət-sənaye dairələrinin nümayəndələrinin əlinə keçməsi Azərbaycan sahibkar kəndində mülkiyyətçilər təbəqəsinin sosial bazasının xeyli dəyişməsinə gətirib çıxarırdı. Məsələn, 1904-cü ildə Qarabağ xanlarının varislərinə məxsus Xan Qərvənd kəndində 15 min desyatin (26, 11) sahə, Şuşa qəzasında Muradbəyli və Ağdam kəndlərində Soromonov qardaşları və Xublarov qardaşları firmaları yerli mülkədar və bəylərin yüz və minlərlə desyatin torpaq mülklərini satın almışdılar (9, v.39-40). 1900-cü ildə Cavad qəzasında «Şahvəlilər» adlı 1000 desyatindən çox mülk Xublarov qardaşları tərəfindən satın alınmışdı (15, v.395).

Şuşa qəzasında yenə Qarabağ xanlarının varislərindən 18 min desyatinə yaxın mülk torpaqlarının satın alınması haqqında da məlumat var (10, v.9-10).

Azərbaycan milyonçusu və xeyriyyəçi H.Z.Tağıyevin cələ XIX əsrin sonunda «Yevlax mülkü» adlı sahəni aldığından bəhs etmişdik. H.Z.Tağıyevin 1915-ci ildə bu mülkün yaxınlığında yeni torpaq sahələrini almaq üçün 500

min manat xərcləmişdi (11, v.17-18).

Daha sonra ixtisasca aqronom olan A.Stepanov 1904-cü ildə Cavad qəzasında bir qrup yerli bəydən təxminən 2100 desyatin mülkü 120 min manata satın almışdı (12, v.22). Quba qəzasında Bakıxanovlar və bir qrup digər mülkədarlar ardıcıl işləyən bir neçə il 10 min desyatinə yaxın mülklərini Bakıdan olan neft sənayeçilərinə satmağa məcbur olmuşdular (33, 22).

Bu siyahını sonsuz dərəcədə uzatmaq olardı. Lakin bir məsələ məlum idi ki, XX əsrin əvvəllərində belə alqı-satqılar, illərlə geniş torpaq mülklərinə sahib olan azərbaycanlı mülkədar və bəylərin böyük bir hissəsi yeni əmtəə-kapitalist münasibətlərinin yarandığı və gücləndiyi şəraitdə ya torpaqlarını satır, ya banklara girov qoyur, bəzi hallarda isə hətta bunlardan məhrum olurdular.

Ümumiyyətlə, XX əsrin əvvəllərində sahibkar kəndində əmtəə istehsal prosesində bank kredit təşkilatların rolu Kəndli Əsasnaməsindən qəbulundan sonra dəfələrlə artmış və bu iş yeni formalarda özünü aydın büruzə verirdi. Proses ümumiyyətlə, sahibkar kəndində əmtəə-kapitalist münasibətlərinin yaranması və inkişafı gedişində zəruri olaraq başlasa da, lakin əsrin sonunadək o qədər də böyük vüsət almayıb, olsa da son dərəcə bəsit formalarda özünü büruzə verirdi.

Xüsusilə də XX əsrin əvvəllərində yeni təsərrüfatçılıq fəaliyyətinə keçid üçün, öz fəaliyyətlərini yeni əmtəə-kapitalist münasibətlərinin tələblərinə uyğunlaşdırmaq üçün həm sahibkar kəndlilərinə, həm də bəy, mülkədar sahiblərinə nağd pul vəsaiti əldə edilməsi olduqca zəruri idi. 1906-cı ildə Yelizavetpol quberniyasında, 1907-ci ildə Bakı quberniyasında ilk kiçik kredit təşkilatları yarandı. Bütövlükdə Azərbaycanda 1914-cü ildə 129 xırda kredit təşkilatı fəaliyyət göstərirdi və bunların 68-i kənd təsərrüfatı sahəsinə xidmət edirdi (16, v.57). Lakin bunlara baxmayaraq Azərbaycan da kəndli təsərrüfatlarının 45-50% bu təşkilatların xidmətlərindən yararlana bilirdi.

XX əsrin ilk illərindən başlayaraq bank-kredit təşkilatlarına kredit almaq məqsədilə müraciət edən mülkədar və bəy təsərrüfatlarının sayı artmaqda idi. Rusiya Dövlət Bankının Azərbaycan quberniyalarında yerli filiallarının hələlik açılmadığı bir şəraitdə azərbaycanın sahibkarları bu bankın daha geniş maliyyə imkanları olan Tiflis bölməsinin xidmətindən istifadə edirdilər (22, v.34). Məsələn, 1910-cu ildə Tiflis bölməsi Yelizavetpol quberniyasından olan 126 mülkədara 764 min manat məbləğində veksel kağızları üzrə kredit ayırmışdı (28, 6). 1912-ci ildə yenə həmin bölmədən artıq 200 sahibkar kənd təsərrüfatı fəaliyyətinin müxtəlif sahələri üçün kredit almağa nail olmuşdu (29, 96).

Yelizavetpol qəzasından olan mülkədarlar B.Ağasıbəyov bu bölmədən 1908-ci ildə pambıqçılıq təsərrüfatının genişləndirilməsi məqsədilə 25 min manat, Adil xan Ziyadxanov 1911-ci ildə öz təsərrüfatının müxtəlif sahələrinə sərf edilməsi məqsədilə 10 min manat, 1905-ci ildə Xilxilli kəndindən olan Həmid bəy və Mehrəli bəy Zülqədərovlar yeni eyni məqsədlə müvafiq olaraq 12 min və 10 min manat, İsrafilbəyov qardaşları 1910-cu ildə taxılçılıq və pambıqçılıq təsərrüfatlarının genişləndirilməsi və mükəmməl yeni əmək

alətlərinin gətirilməsi üçün 5 min manat, Şirin bəy Şaxmalıyev 1909-cu ildə müxtəlif yenidənqurma işləri, taxılbiçən və taxıldöyən qurğular alman üçün 5 min manat, Dəllər kəndindən Süleyman bəy Şəmkirli taxılçılıq və pambıq əkini, habelə, pambıq təmizləmə qurğuları almaq üçün 1910-cu ildə 5 min manat kredit almışdı (17, v.30). Göründüyü kimi, ayrılmış kreditlərin məbləği o qədər də yüksək deyildi. Çünki bu kreditlər sahiblər mülklərinin girov qoyulması əvəzində yox, sadəcə veksel-borc kağızları əsasında verilmişdi.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikası Dövlət Tarix Arxivi(АРДТА). f.43, siy.23, iş 156.
2. АРДТА. f.287, siy.1, iş 9
3. АРДТА. f.416, siy.1, iş 75
4. АРДТА. f.187, siy.1, iş 184
5. АРДТА. f.583, siy.1, iş 115
6. АРДТА. f.119, siy.1, iş 2
7. АРДТА. f.43, siy.1, iş 189
8. АРДТА. f.43, siy.23, iş 157
9. АРДТА. f.170, siy.1, iş 494
10. АРДТА. f.170, siy.1, iş 404
11. АРДТА. f.187, siy.1, iş 404
12. АРДТА. f.170, siy.1, iş 2
13. Государственный исторический архив России в Санкт-Петербурге (ГИА РФ). ф.573, оп.25, д.64.
14. ГИА РФ. ф.573, оп.25, д.64
15. ГИА РФ. ф.587, оп.52, д.976
16. ГИА РФ. ф.587, оп.52, д.592
17. ГИА РФ. ф.587, оп.56, д.1159
18. ГИА РФ. ф.398, оп.75, д.419
19. ГИА РФ. ф.573, оп.75, д.313
20. ГИА РФ. ф.1033, оп.1, д.6469
21. ГИА РФ. ф.587, оп.25, д.65
22. ГИА РФ. ф.587, оп.25, д.66
23. T.T.Vəliyev. XX əsr Azərbaycan tarixi. I cild. Bakı: Təhsil, 2009, 560 s.
24. Гасанов Г.Н. Из истории Североазербайджанской деревни в конце XIX – начале XX вв. Баку: Тахсил, 2007, 224с.
25. Исмаилов М.А. Сельское хозяйство Азербайджана в начале XX века. Баку: Элм, 1960 , 127 с.
26. Кавказское хозяйство.1913 г. №5
27. Кавказское хозяйство.1914 г. № 6
28. Кавказское хозяйство.1913 г. №23
29. Ежегодник России на 1914 г., раздель XII.
30. Предварительные итоги Всероссийской сельскохозяйственной переписи. 1916 г. Кавказ. Тип. Стат. Управ. Петроград. 1917 г., вып.2.
31. Сборник статических данных о землевладении и способах хозяйства в пяти губерниях Закавказского края. прил.5., Типография М.Шарадзе. Тифлис, 1899, 841 с.
32. Сборник сведений по культуре ценных растений на Кавказе. Тип. КСХО. Тифлис 1900 г., вып.5, 536 с.
33. Экономический вестник. 1924 г. №3

# ОСОБЕННОСТИ ТОВАРНО-КАПИТАЛИСТИЧЕСКОГО ПРОИЗВОДСТВА ВО ВЛАДЕЛЬЧЕСКОЙ ДЕРЕВНЕ СЕВЕРНОГО АЗЕРБАЙДЖАНА В КОНЦЕ XIX – В НАЧАЛЕ XX ВЕКОВ

**Ф.Э.БАХШАЛИЕВ**

## РЕЗЮМЕ

В статье подробно излагается все изменения в области товарного – капиталистического производства во владельческой деревне Северного Азербайджана. Указывается, что не только помещики и беки, но и их крестьяне на своих хозяйствах стали производить различные товары все больше и больше. Помещики Северного Азербайджана, постепенно лишившиеся прежних рабочих рук, отдавали свои земли в аренду разным лицам или сами стали вести свое хозяйство по новым капиталистическим правилам. Происходил процесс продажи и закладывание помещичьих земель в банках. Иногда помещики и беки прибегали к использованию наемного труда в своих хозяйствах.

**Ключевые слова:** Азербайджан, капиталист, развитие, деревня, Север

# DEVELOPMENT PECULIARITIES OF COMMODITY-CAPITALIST RELATIONS IN THE VILLAGES OF NORTHERN AZERBAIJAN LATE IN XIX – EARLY IN XX CENTURIES

**F.E.BAKHSHALIYEV**

## SUMMARY

The article studies features of capitalist production in the possessory village of Northern Azerbaijan late in XIX- early in XX centuries. The article investigates the changes in the commodity - capitalist production in the possessory villages of Northern Azerbaijan. It's indicated that not only the landlords and bays, but also their peasants on their farms produced more and more different products. Landowners of North Azerbaijan gradually lost their former lands, gave their lands for rent or to different people, and began to conduct their farms under new capitalist rules. The process of selling and bonding of estates in the banks was realized. Sometimes landlords and bays resorted to the use of hired labor on their farms.

**Key words:** Azerbaijan, capitalist, development, village, Northern